**AZƏRBAYCANIN qiymətləndirilməsi**
Qiymətləndirmə Hesabatı
Davamlı İnkişaf Strategiyaları Qrupu (DİSQ), Müstəqil Qiymətləndirici
09 oktyabr 2016-cı il

## 1. QISA XÜLASƏ

Azərbaycan 2007-ci ildə MHŞT-ə namizəd üzv qəbul edilmiş və 2009-cu ildə MHŞT-nin tləblərinə cavab verən ilk ölkə olmuşdur. Ölkə 2005-ci ildən bəri MHŞT hesabatlarını vaxtında təqdim etmişdir. Bununla belə, vətəndaş cəmiyyətinin iştirakı ilə əlaqədar narahatlığa səbəb olan məsələlər MHŞT Şurasını vadar etmişdir ki, ölkədən 2015-ci ildə MHŞT standartı əsasında erkən Qiymətləndirmə aparmağı xahiş etsin. Şura Azərbaycanın standartın tələblərinə cavab vermədiyini, lakin MHŞT-nin icrasında nəzərəçarpan irəliləyiş əldə etdiyini, bununla da onun tam hüquqlu ölkədən daha çox namizəd ölkə statusuna layiq olduğunu müəyyənləşdirmişdir. Şura təsdiqlənmiş 2013-cü il MHŞT üzrə Hesabat olmadığından MHŞT üzrə açıqlamaların 2, 3, 4 və 5-ci tələblərinə uyğunluğun qiymətləndirilməsinin mümkün olmadığını əlavə edərək, Azərbaycan üçün 15 aprel 2016-cı il tarixinədək başa çatdırılması nəzərdə tutulan vətəndaş cəmiyyətinin cəlb edilməsi, iş planı, ictimai debatlar və təsir ilə əlaqədar təshihedici tədbirlər müəyyənləşdirmişdir. MHŞT Şurası qeyd olunan təshihedici tədbirlərin başa çatdırıldığını və həll olunmamış tələblərin yerinə yetirildiyini yoxlamaq üçün 1 iyul 2016-cı il tarixindən başlayaraq 1 iyun 2016-cı il tarixində Azərbaycanda ikinci Qiymətləndirmənin aparılması barədə qərar qəbul etmişdir.

2016-cı ilin fevralında Şura tərəfindən yenidən baxılaraq təsdiqlənmiş Qiymətləndirmə proseduruna müvafiq olaraq, Beynəlxalq Katibliyə maraqlı tərəf ilə məsləhətləşmələr və qrup tərəfindən prosesin gedişinin ilkin qiymətləndirməsini (“İlkin Qiymətləndirmə”) apararaq, müvafiq sənədlərin nəzərdən keçirilməsinin birinci mərhələsi həvalə edilmişdir. DİSQ müvafiq sənədlərin nəzərdən keçirilməsi və İlkin Qiymətləndirmənin aparılması, təsadüfi yoxlamaların aparılması üçün riskə əsaslanan yanaşma üsulu və maraqlı tərəflər ilə əlavə məsləhətləşmələrin aparılması vasitəsilə Katibliyin işinin Qiymətləndirmə Təlimatlarına uyğun olaraq yerinə yetirilib-yetirilmədiyini qiymətləndirmək üçün müstəqil Qiymətləndirici qismində təyin edilmişdir. Lazım gəldikdə, DİSQ Katiblik tərəfindən Qiymətləndirməni nəzərdən keçirəcək, ona düzəliş edəcək və Şuraya təqdim olunması üçün Qiymətləndirmə Hesabatında öz rəyinin xülasəsini təqdim edəcəkdir.

- ### İlkin Qiymətləndirmə barədə qeydlər

Katibliyin işi 2016-cı il 21 iyun tarixindən 26 iyun tarixinədək müvafiq sənədlərin nəzərdən keçirilməsindən, 2016-cı il 3-9 iyul tarixlərində maraqlı tərəflə məsləhətləşmələr və İlkin Qiymətləndirməni aparmış Katibliyin üçnəfərlik qrupunun ölkəyə səfərindən ibarət olmuşdur. Bu tapşırıqlar 2016-cı İlin Qiymətləndirmə Təlimatına müvafiq olaraq Katibliyin Qrupu tərəfindən aparılmışdır. Müvafiq qaydada və şəffaf təşkil olunmuş İlkin Qiymətləndirmədə tələblər müfəssəl şəkildə müzakirə edilir və Azərbaycanın inkişaf səviyyəsi qiymətləndirilir. Müvafiq hallarda və mövcud olduqda, köməkçi sənədlərə və maraqlı tərəfin məlumatlarına istinad edilir. Bununla belə, qiymətləndirmə zamanı 2016-cı il Qiymətləndirmə Təlimatı əsasında müəyyənləşdirilən inkişaf səviyyəsi ilə əlaqədar təyinatlardan (qənaətbəxş, nəzərəçarpan, qeyri-müvafiq və inkişafsız) davamlı olaraq istifadə edilməlidir. Xüsusi təriflərinə əsasən bunlar rəylər və Qiymətləndirmələr boyu ardıcıllığı təmin etmək məqsədi daşıyır. Qiymətləndirmə zamanı inkişafın və ya uyğunluğun səviyyəsini təsvir etmək üçün “əhəmiyyətli inkişaf” kimi digər terminlərdən istifadə edilməsi çaşqınlıq yarada bilər. Eynilə, daha dəqiq tətbiq edilə bilmədikdə, tələbin qənaətbəxş irəliləyiş ilə yerinə yetirildiyi barədə rəyin verilməsi çaşqınlığa səbəb ola bilər.

- **Müstəqil Qiymətləndirici tərəfindən görülən iş**

Katiblik oktyabr ayının sonlarında Şuranın Astanada iclasının keçirilməsindən qabaq Azərbaycan və dörd digər ölkə üçün Qiymətləndirmə Hesabatının təqdim edilməsini xahiş etmişdir. Bunların əksəriyyəti üçün ÇQ-in iradları gözlənilməklə, bu ölkələr üçün İlkin Qiymətləndirmələrin həm pdf, həm də redaksiya oluna bilən formatda olan variantları 2016-cı ilin sentyabr ayında DİSQ Qiymətləndirmə Qrupuna təqdim edilmişdir. Qiymətləndirmə Qrupu (1) qrup tərəfindən MHŞT üzrə Qiymətləndirmənin dərindən yoxlanılması və qeydlərin aparılması; (2) Çoxtərəfli Qrupun mütəxəssisi tərəfindən 1 və 7-ci tələblərin ətraflı yoxlanılması və qeydlərin aparılması; (3) Maliyyə mütəxəssisi tərəfindən 2-cidən 6-cıya qədər bütün tələblərin ətraflı yoxlanılması və qeydlərin aparılması; və (5) ümumi layihənin tərtib olunmasına və bütün rəylərin Qrup Rəhbəri tərəfindən müfəssəl qaydada yoxlanmasına vasitəsilə bu tapşırığı yerinə yetirməyi öhdəsinə götürmüşdür.

- **Qiymətləndirmə məhdudiyyətləri barədə qeydlər**

Qiymətləndirmə Qrupu üçün ən mühüm çətinlik MHŞT-nin Azərbaycanda icrasını yoxlamaq üçün nəzərdə tutulan vaxt müddətinin sıxlığından ibarət olmuşdur. Maraqlı tərəfə dəstək verilməsi praktiki cəhətdən mümkün olmamış və İlkin Qiymətləndirmələrdən kənarda sənədin müfəssəl nəzərdən keçirilməsi qeyd-şərtsiz məhdudlaşdırılmışdır. Bununla belə, qeyd edilməlidir ki, Qiymətləndiricinin Katiblik tərəfindən başa çatdırılmış məlumat toplama və məsləhətləşmə işini təkrarlayacağı gözlənilmir. 1 iyul 2016-cı il tarixindən sonra Şuranın açıq göstərişi əsasında həyata keçirilmiş fəaliyyətlərin nəzərdən keçirilməsinə icazə verilmir. Bu məhdudiyyətlərə baxmayaraq, Qiymətləndirmə Qrupu 2016-cı il standartının müxtəlif tələblərinə görə Azərbaycanın inkişaf səviyyəsini müəyyənləşdirmək üçün Katibliyin İlkin Qiymətləndirməsini və mövcud istinadları diqqətlə nəzərdən keçirmişdir.

## 2. ÜMUMİ QEYDLƏR

- **MHŞT-nin icrasının gedişi**

Azərbaycanın MHŞT-nin icrası üzrə inkişafı nəzərəçarpacaq dərəcədə qeyri-bərabər təsvir edilə bilər – onun hesabatların vaxtında təqdim edilməsi və MHŞT-nin geniş tətbiqinin diqqət mərkəzində saxlanması ilə əlaqədar davamlı öhdəliyi dərin təsir bağışlayır və təqdirəlayiqdir. Bununla belə, bu və ya digər müsbət cəhətlər vətəndaş cəmiyyətinin cəlb olunmasının əks təsir göstərən çətinliklərin kölgəsində qalması və MHŞT prosesinin daha geniş ictimai müzakirəyə təkan verməк və aydın və daha geniş yayılmış təsir nümayiş etdirmək qabiliyyətinin açıq-aşkar olmaması riski ilə üzləşməkdədir. Məsələn. gəlirlərin idarə olunması üzrə vətəndaşlar və cəmiyyətlər üçün yerində təsirlər ilə bağlı MHŞT-nin tələbləri ilə əlaqədar olaraq ÇQ tərəfindən daha geniş diqqət nəzərdən keçirilməlidir. İctimaiyyətin məlumatının artırılması və və vətəndaş cəmiyyəti narahat edən məsələlərin nəzərdən keçirilməsi ilə əlaqədar son cəhdlər prosesin nəticələrinin qənaətbəxş olmasa da, nəzərə çarpacağına təminat verir. Nisbətən kiçik dağ-mədən sektoru barədə məlumat və informasiya kifayət deyil. Ümumiyyətlə, daha geniş məqsədlərin yerinə yetirilməsinə daha çox diqqət yetirməklə 2-ci bənddən 6-cə bənddə qədər tələblərin əsasında məlumatların açıqlanması gücləndirilə bilər. İş planının məqsədlərini və icrasını milli prioritetlər ilə əlaqələndirmək üçün əlavə düşünmək tələb olunur.

- **MHŞT-in icrasının təsiri**

Qiymətləndirmə üçün məsləhətələşmə aparılmış MHŞT ilə müxtəlif səviyyədə tanış olan maraqlı tərəflər MHŞT-in icrasının müsbət təsirə malik olduğunu bildirmişdir. Bunlara aşağıdakılar daxildir, lakin bunlarla

məhdudlaşmır: MHŞT xüsusilə hökumət və sənaye tərəfdən məsuliyyətin əhəmiyyətini vurğulamışdır; o maraqlı tərəflərin arasında etimad və dialoqa şərait yarada bilər; o mədən sənayesi sektorunun daha yaxşı başa düşülməsinə və onun barədə texniki biliklərin alınmasına yardım etmişdir; MHŞT-də iştirak sərmayə mühiti üçün etimad yarada və həmin mühitə dəstək verə bilər. Bununla belə, eyni zamanda, ÇQ və daha çox vətəndaş cəmiyyətinin 2014-cü il MHŞT Hesabatı ilə əlaqədar ictimaiyyətin məlumatlandırılması tədbirlərini həyata keçirdiyinə baxmayaraq MHŞT barədə məlumatın hələ kifayət qədər məhdud olduğu görünür. “MHŞT-in sektorun idarə olunması və neft gəlirlərinin sərf edilməsi barədə milli müzakirələrin aparılmasında məhdud rol oynadığı görünür”, “MHŞT hesabatlarının mədən sənayesi sektorunda hökumət islahatlarının aparılmasında hər hansı əhəmiyyətli rol oynamadığı görünür” və “(MHŞT ilə laqədar) bu səylərin təbii ehtiyatların idarə olunmasına təsir göstərdiyini göstərən sübutlar kifayət deyil” kimi bəyanatlar ilə Qiymətləndirmə mühüm xüsusi məlumatları təmin edir. ÇQ təsirləri və ya təsirlərin olmamasını daha cidd-cəhdlə analiz etməlidir. Əlavə amillərə ölçülə bilən məqsədlərin layihələndirilməsində, təsirin qiymətləndirilməsi üçün müvafiq metodologiyaların tətbiq edilməsində davamlı maraqlı tərəflərin əminliyinin və ölkə boyu davamlı təbliğat səylərinin olmaması daxil ola bilər. MHŞT-in insanların və icmaların gündəlik həyatlarına həqiqi, nəzərəçarpan təsir göstərmədiyi görünür. Digər sözlə, Azərbaycanda MHŞT-in müsbət təcrübəsində “insan amili”nə dair sübut azdır.

- **Müstəqil Qiymətləndirici tərəfindən uyğunluğun Qiymətləndirilməsi**

| ***Şəkil 1 – MHŞT tələblərinin Qiymətləndirici tərəfindən qiymətləndirilməsi*** | | **İRƏLLİLƏYİŞ SƏVİYYƏSİ** | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | İrəliləyiş yoxdur | Qeyri-adekvat | Nəzərəçarpan | Qənaətbəxş | Gözləniləndən artıq | Qeyd |
| **Kateqoriyalar** | **Tələblər** | | | | | | |
| **ÇQ tərəfindən nəzarət** | Hökümətin iştirakçılığı (#1.1) | | | | ■ * | | |
| | Sənayenin iştirakçılığı (#1.2) | | | | ■ * | | |
| | Vətəndaş cəmiyyətinin iştirakçılığı (#1.3) | | ■ | ← | | | 1 |
| | ÇQ-ın idarəçiliyi (#1.4) | | | ■ | | | |
| | İş planı (#1.5) | | | ■ | ← | | 2 |
| **Lisenziyalar və müqavilələr** | Hüquqi çərçivə (#2.1) | | | | ■ | | |
| | Lisenziyaların verilməsi (#2.2) | | | | | | 3-NA |
| | Lisenziyaların reyestri (#2.3) | | | ■ | ← | | 4 |
| | Müqavilələrin açıqlanmasına dair Siyasət (#2.4) | | | | ■ | | |
| | Benefisiar sahiblik (#2.5) | | | | | | |
| | Dövlətin iştirakı (#2.6) | | | ■ | | | |
| **Hasilatın monitorinqi** | Kəşfiyyat haqqında məlumatlar (#3.1) | | | | ■ | | |
| | Hasilat haqqında məlumatlar (#3.2) | | | | ■ | | |
| | İxrac haqqında məlumatlar (#3.3) | | | | ■ | | |
| **Gəlirlərin toplanılması** | Müfəssəllik (#4.1) | | | ■ | ← | | 5 |
| | Natura ilə gəlirlər (#4.2) | | | | ■ | | |
| | Barter sazişləri (#4.3) | | | | | | |
| | Nəqletmə gəlirləri (#4.4) | | | | ■ | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dövlət müəssisələri ilə əməliyyatlar (#4.5) | | | | | | |
| | Birbaşa sub-milli ödənişlər (#4.6) | | | | | | |
| | Məlumatların xırdalanması (#4.7) | | | | | | |
| | Məlumatların vaxtında təqdim olunması #4.8) | | | | | | |
| | Məlumatların keyfiyyəti (#4.9) | | | | ← | | 6 |
| Gəlirlərin ayrılması | Gəlirlərin idarə olunması və məsrəflər (#5.1) | | | | | | |
| | Sub-milli transferlər (#5.2) | | | | | | |
| | Gəlirlərin paylanması (#5.3) | | | | | | |
| Sosial-iqtisadi töhfə | Məcburi social məsrəflər (#6.1.a) | | | | | | |
| | İxtiyari social məsrəflər (#6.1.b) | | | | | | |
| | Dövlət müəssisələrinin kvazi-maliyyə məsrəfləri (#6.2) | | | | | | |
| | İqtisadi yardım (#6.3) | | | | | | |
| Nəticələr və təsir | İctimai müzakirələr (#7.1) | | | | ← | | 7 |
| | Məlumatların çatımlılığı (#7.2) | | | | | | |
| | Tövsiyyələr üzrə izləyici tədbirlər (#7.3) | | | | * | | |
| | Nəticələr və icra prosesinin təsiri (#7.4) | | | | | | |

Qeydlər:
*2015-ci ilin Qiymətləndirməsi zamanı tələb yerinə yetirilmişdir. Təkrar qiymətləndirmə aparılmamışdır.
1 – Nəzərəçarpan inkişafın əldə edilməsindən daha çox Qiymətləndirici razılaşmır və qeyri-müvafiq hesab edir.
3 – Qiymətləndirici bu tələbin tətbiq oluna bilmədiyini müəyyənləşdirmişdir.
2-7 – Qiymətləndirici razılaşmamışdır və qənaətbəxş olmaqdan daha çox nəzərəçarpan irəliləyişin əldə edildiyini müəyyənləşdirmişdir.
Əlavə müzakirə üçün ətraflı nəticələri nəzərdən keçirməyiniz xahiş olunur.

## 3. MÜFƏSSƏL NƏTİCƏLƏR

Qiymətləndirmədə Şura tərəfindən müəyyənləşdirilmiş təshihedici tədbirlərə və Azərbaycanın 2015-ci il Qiymətləndirməsinin həll olunmamış tələblərinə diqqət yetirilir. Qiymətləndirmədə bildirilir ki, "Yerinə yetirilməmiş hesab edilmiş tələblər təkrar qiymətləndirilməmişdir." Tətbiq oluna bilən hallarda, biz Katibliyin bu nəticəyə xələl gətirən narahatlıqların olmadığını təsdiqləməsini tövsiyə edirik. Eyni qaydada hazırki Qiymətləndirmə Hesabatında Şura tərəfindən müəyyənləşdirilmiş təshihedici tədbirlərə və Azərbaycanda 2015-ci il MHŞT-nin Qiymətləndirilməsinin həll olunmamış tələblərinə diqqət yetirilir.

1.1. **Hökumətin iştirakçılığı.** Bu tələb əvvəl yerinə yetirilmiş və təkrar qiymətləndirilməmişdir.

1.2. **Şirkətin iştirakçılığı.** Bu tələb əvvəl yerinə yetirilmiş və təkrar qiymətləndirilməmişdir.

1.3. **Vətəndaş cəmiyyətinin iştirakçılığı.** Hazırki tələbin əsasında spesifik asektləri və onun daha geniş məqsədlərini nəzərə alaraq, biz Azərbaycanın nəzərəçarpan irəliləyiş əldə etməsi ilə əlaqədar Qiymətləndirmədəki məlumatlar ilə razılaşmırıq və bu irəliləyişin **QEYRİ-ADEKVAT** olduğunu müəyyənləşdimişik. Biz bu nəticəni dəyişmək üçün ÇQ-in ilkin qiymətləndirməyə dair rəyində kifayət qədər sübut müəyyənləşdirməmişik.

İlkin Qiymətləndirmənin E əlavəsində vətəndaş cəmiyyətin MHŞT-də iştirakı ilə əlaqədar çətinliklərin hərtərəfli, müfəssəl, ciddi və diqqətli analizi təqdim edilmişdir. Katibliyin gəldiyi nəticələrin Qiymətləndirmənin əsas hissəsində təqdim edilməsi və ya ən azı yekunlaşdırılması çox faydalı olacaqdır.

*Özünüifadə azadlığı*: Biz Katibliyin özünüifadə ilə əlaqədar ilkin qiymətləndirməsi ilə razılaşmırıq. 2015-ci il İşin Gedişinə Dair İllik Hesabatda Koalisiya üzvlərinin bir sıra təqdirəlayiq ictimai tədbirlərdə iştirak edə bilməsinə dair sübut təqdim edildiyi halda vətəndaş cəmiyyətin nümayəndələri məhdudiyyət, məcbur etmə və qisas halları olmadan MHŞT prosesi ilə əlaqədar fikirlərin bildirilməsində və MHŞT prosesi barədə rəy verilməsində mühüm məhdudiyyətlər ilə üzləşməyə davam edir. Əlavə E-də bildirilir ki, "2016-cı ildə müsbət dəyişikliklərə baxmayaraq, vətəndaş cəmiyyət üçün mühitin təkmilləşdirilməsi məqsədilə hökumət tərəfindən götürülən öhdəliyin bir neçə əlaməti vardır". Əlavə E-də bildirildiyi kimi:

- Koalisiyanın üç üzvü həbs olunma qorxusundan ölkədən kənarda yaşayır.
- MHŞT tədbirlərinin əksəriyyəti "müəyyən formada hökumətin nəzarəti altında qalmaqdadır və hökumət tərəfindən təsdiqlənməlidir."
- Vətəndaş cəmiyyətin vəziyyəti, həmçinin, təbii ehtiyatların idarə olunması məsələləri ilə əlaqədar fikir bildirdikdə vətəndaş cəmiyyətin nümayəndələri "müəyyən qisas və ya təhdid qorxusu" ilə üzləşir.
- 2015-ci ilin aprelində MHŞT Şurasının Azərbaycan haqqında qəbul etdiyi qərardan sonra həm də MHŞT Şurasının üzvü olan Vətəndaş Cəmiyyət Təşkilatının (MCT) ÇQ-in üzvlüyünə namizəd yerli kütləvi informasiya vasitələrində Azərbaycanın nüfuzunun aşağı düşməsinə cavabdeh şəxs kimi qələmə verilmiş və dövlətə qarşı xəyanətdə günahlandırılmışdır.
- Bəzi nümunələrdə vətəndaş cəmiyyətin MHŞT prosesində əhəmiyyətli dərəcədə cəlb edilən nümayəndələri MHŞT prosesi ilə əlaqədar fikirlərini bildirdiklərinə görə hədə-qorxu ilə üzləşmişdir

Əlavə E-də əlavə qeyd edilir ki, "hətta 1.3.d, 1.3.e.i və 1.3.e.iv bəndlərinin tələblərində vətəndaş cəmiyyətin sərbəst danışmaq və fikirlərini məhdudiyyətsiz ifadə etmək iqtidarında olması bildirilsə belə, vahid hadisənin və ya kiçik sayda hadisələrin tələbin yerinə yetirilmədiyi barədə nəticəyə gəlməyə əsas vermədiyi görünür. Söz azadlığını məhdudlaşdıran nümunənin olub-olmadığını nəzərdən keçirərkən müəyyən növ ümumi qiymətləndirmə tələb olunur". Əlavə E-də təqdim edilən işin mahiyyətinə aid sübut, o cümlədən, lakin bunlarla məhdudlaşmadan, yuxarıda qeyd edilən dəlillər əhəmiyyətli sayda hadisələrin baş verdiyini və vətəndaş cəmiyyətin nümayəndələrinin geniş miqyasda hiss etdikləri qisas və təhdid qorxusu ilə əlaqədar fikirləri göstərir və ifadə azadlığının məhdudlaşdırılması üçün hökumət tərəfindən görülən tədbirləri əks etdirir.

*Fəaliyyət*: Biz fəaliyyət ilə əlaqədar Katibliyin ilkin qiymətləndirməsi və 1.3(b) və 1.3(c) bəndlərinin tələblərinin yerinə yetirilməməsi ilə razılaşırıq. Xüsusilə, Əlavə E-də bildirilir ki:

- 2015-ci il iyul və 2016-cı il fevral ayları arasında bir neçə qadağanedici qayda qəbul edilmişdir. Bu qaydaların, ələlxüsus, QHT-nin, həmçinin, xarici donorlar tərəfindən verilən qrantların və qəbul edən QHT-lərin qeydiyyatı ilə əlaqədar qaydaların icrası daha müstəqil vətəndaş cəmiyyətin fəaliyyətinin süstləşməsi ilə nəticələnərək vətəndaş cəmiyyətin fəaliyyətini əlavə məhdudlaşdırmışdır.

- Digərlərin arasında, məsələlərə vəsaitlərdən istifadə imkanının və ya qrantların qeydiyyatdan keçirilməsinin mümkün olmaması, bank hesablarındakı vəsaitlərdən istifadə və QHT-nin qeydiyyatı zamanı çətinliklərin yaradılması daxildir.

- Qeydiyyat ilə əlaqədar çətinliklər ilə üzləşən şəxslər ilə əlaqədar olaraq, Beynəlxalq Katiblik başa düşür ki, bu QHT-lərin böyük əksəriyyəti bir neçə il ərzində qeydyyatdan keçməyə cəhd göstərmiş, lakin Ədliyyə Nazirliyi (ƏN) onları qeydiyyata almamışdır. Hazırda bu QHT-lərin bəziləri öz işlərini Avropa İnsan Hüquqları Məhkəməsinə təqdim etmişdir.

- Son iki il ərzində ən azı 22 Koalisiya üzvləri, o cümlədən, ÇQ və Koalisiya Şurasının üzvləri sərhədi keçərkən xüsusi yoxlama və sorğu-suallara məruz qalmışdır.
- Müşahidə olunan məhdudiyyətlərin əksər hissəsinin vətəndaş cəmiyyətin nümayəndələrinin MHŞT fəaliyyətlərində iştirakı ilə birbaşa əlaqədar olmamasına baxmayaraq, vətəndaş cəmiyyətin nümayəndələrinin MHŞT prosesində iştirak etmək imkanlarına daha geniş mühit təsir göstərir.

- Vəsait çatışmazlığı və məhdudlaşdırıcı mühit QHT-lərin düşündüklərinə görə MHŞT-in səbəb olduğu vətəndaş cəmiyyətin fəaliyyət sahəsində Koalisiyanın fəaliyyətinə təsir göstərən maneə yaratmışdır.

- Daxili gərginlik “Koalisiyanın parçalanması dərəcəsinə qədər yüksəlmişdir”

*Assossiasiya*: Biz yuxarıda birbaşa qeyd edildiyi kimi vəsaitlərdən istifadə ilə əlaqədar qoyulan məhdudiyyətlərin vətəndaş cəmiyyətin nümayəndələri arasında əlaqə və əməkdaşlığa mənfi təsir göstərdiyini vurğulayırıq. Əks təqdirdə Katibliyin MHŞT prosesinə cəlb olunan vətəndaş cəmiyyətin digər milli və ya beynəlxalq vətəndaş cəmiyyət qruplarının fəaliyyətlərinə cəlb olunmasının məhdudlaşdırılmaması barədə qiymətləndirməsi ilə razılaşırıq .
*Cəlb olunma:* Biz vətəndaş cəmiyyətin nümayəndələrinin MHŞT prosesinin layihələndirilməsinə, icrasına, monitorinqinə və qiymətləndirilməsinə fəal, aktiv və səmərəli şəkildə cəlb olunması barədə İlkin Qiymətləndirmə ilə razılaşırıq. Biz 1.3a və 1.3e.ii bəndlərinin tələblərinin yerinə yetirildiyi ilə razılaşırıq.

*İctimai qərarın qəbul edilməsi prosesində iştirak:* Biz Katibliyin bu məsələ ilə əlaqədar ilkin qiymətləndirməsi ilə razılaşırıq.

Yekunda, biz MHŞT prosesinə cəlb edilmiş QHT-lər ilə əlaqədar vəziyyəti asanlaşdırmaq üçün hökumət tərəfindən görülmüş müsbət tədbirlərin təqdir olunması və 1.3a və 1.3e.ii-iii bəndlərinin tələblərinin yerinə yetirilməsi ilə razılaşırıq. Biz 1.3b-d və 1.3e.i və 1.3e.iv tələblərinin yerinə yetirilməsi üçün əlavə işlərin görülməsinə ehtiyac olması ilə razılaşırıq.

1.4. **ÇQ-in idarə olunması.** Biz bu tələbin yerinə yetirilməsində Azərbaycanın **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsi barədə Qiymətləndirmə ilə razılaşırıq.

Katiblik xüsusilə, ÇQ-nin üzvləri qismində MHŞT-yə cəlb edilmiş vətəndaş cəmiyyət qruplarının “fəaliyyət və siyasi nöqteyi-nəzərdən hökumətdən və/yaxud şirkətlərdən asılı olmaması” barədə 1.4a.ii tələbi ilə əlaqədar narahatlıqlar bildirmişdir. Katibliyin qiymətləndirməsində bildirilir ki, bu narahatlıq doğuran məsələyə uyğun təshihedici tədbir vətəndaş cəmiyyət protokolunun 2.3-cü bəndinin əsasında müəyyənləşdirilir və Azərbaycanın nəzərəçarpan irəliləyiş əldə etdiyi göstərilir. Bir qayda olaraq, müzakirə 1.4-cü tələbin müzakirə edildiyi bölmədə təqdim edilməlidir.

1.5. **İş Planı.** Biz Katibliyin qiymətləndirməsi ilə razılaşmırıq və Azərbaycanın **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etdiyini müəyyənləşdirmişik.

Şura tərəfindən müəyyənləşdirilmiş təshihedici tədbirlərdən biri MHŞT-Azərbaycan ÇQ-in mədən sənayesi sektoru üçün milli prioritetlər ilə əlaqəli icra üçün məqsədlərin müəyyənləşdirildiyi məsrəflərin tam həcmi göstərilən İş Planına razılıq verməsi olmuşdur (*MHŞT Şurasının 29-cu iclasının protokolu, səhifə 27*). 2016-cı il İş Planının məqsədləri aşağıdakılardır: təbii ehtiyatlardan əldə edilən mənfəətlər barədə ictimaiyyətin məlumatının artırılması, MHŞT-in birinci plana çıxarılması və MHŞT tərəflərinin arasında sağlam və təkmilləşdirilmiş əlaqələr üçün hüquqi çərçivənin müəyyənləşdirilməsi. Qiymətləndirmədə qeyd edildiyi kimi ölkənin İş Planında qeyd edilən bu üç məqsədin əsası izah edilmir.

İş Planının bu üç məqsədlərindən hər birinin əsasında bir neçə fəaliyyət spesifik vaxt qrafiki. Digərləri davam etməkdə olan ("il boyu davam edən") fəaiyyətlər kimi sadalanmışdır. Ən əhəmiyyətlisi və 1.4b.i tələbi ilə əlaqədar olaraq, dövlət orqanları, milli Katiblik və şirkətlər üçün imkan məhdudiyyətləri və imkan artıran proqramlar qeyd edilmişdir, lakin vətəndaş cəmiyyət ilə əlaqədar bir neçə konkret detallar mövcuddur.Bunun əvəzində 2.2.1-ci fəaliyyətdə ümumiyyətlə "Koalisiyanın imkanının məhdudlaşdırılması ilə əlaqədar məsələlərin həlli" bildirilir. MHŞT-də vətəndaş cəmiyyətin iştirakı ilə əlaqədar mühüm çətinliklərin artıq mövcud olduğunu nəzərə alaraq, İş Planında qeyd olunan narahatlıqlar ilə əlaqədar ilə bağlı daha böyük və daha spesifik fəaliyyətlər təmin edilməlidir.

MHŞT-nin icrasında hüquqi maneələrin xülasəsi ümumi şəkildə İş Planındakı 2.3-cü fəaliyyətdə qeyd edilmiş və nəzərdən keçirilmişdir.

Nəhayət, İş Planı "məsrəflərin tam həcmi göstərilmiş" fəaliyyətlərin standartına cavab vermir. Müəyyən fəaliyyətlər sadəcə 1.5d tələbinin əsasında tələb olunan kimi məbləğ və ya mənbə müəyyənləşdirilmədən qrantların ayrıldığı fəaliyyətlər olaraq göstərilmişdir. Sonradan müzakirə ediləcəyi kimi xüsusilə MHŞT-in məhdud təsirlərini nəzərə alaraq, bu fəaliyyətlərin "ölçülə bilməsi"nin təmin edilməsinə daha çox diqqət yetirilməsi lazımdır.

**2.1. Normativ-hüquqi baza və maliyyə rejimi.** Biz Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** nailiyyət əldə etməsi ilə razılaşırıq.

Bununla belə, 2014-cü il MHŞT Hesabatında oxucunun mədən sənayesi sektorunun necə tənzimlənməsini başa düşməsi üçün əsaslı şərait yaratmadan, çox məhdud xülasəsi və necə tətbiq olunmasının nəqli təsviri ilə birlikdə mədən sənayesi sektoruna tətbiq edilə bilən qanunlar sadalanır. Daha çox təsviri xarakterli olmasına baxmayaraq, maliyyə rejiminin təsviri sstemin necə işləməsinin daha əsaslı şəkildə şəkildə başa düşülməsini təmin edəcəkdir. Qiymətləndirmədə maliyyə rejiminin təsvirindəki məhdudiyyətlər qeyd olunur. Lakin tətbiq edilə bilən qanunların siyahısında "izahat" çatışmır və islahatların siyahısında təklif olunan dəyişikliyin növünün, istiqamətinin və miqyasının təsvirinin çatışmaması işıqlandırılmır. Əsaslı kontekst bazası olmadan MHŞT-in 2-6 tələbləri ilə əlaqədar təqdim edilmiş texniki məlumatın rabitəliliyi daha azdır.

QHT Koalisiyasının 2014-cü il MHŞT Hesabatı barədə rəyində bildirilir ki, yerli hökumətlərin mədən sənayesi sektorundan ödənişlər almaması submilli ödənişlərin müzakirəsində öz əksini tapmışdır. Bu yüksək səviyyədə mərkəzləşdirilmiş maliyyə rejimi gəlirin ayrılması və idarə olunması məsələləri ilə əlaqədardır və Azərbaycanda MHŞT-in ölkə boyu ictimaiyyətin məlumatlandırılması və daha dərin təsir ilə əlaqədar apardığı mübarizənin analizi zamanı nəzərdən keçirilməlidir. ÇQ-in öz müzakirələrini hüquqi və maliyyə rejiminin müvafiqliyinə, həmçinin, mədən sənayesində aparılmaqda olan hər hansı cari islahatlara dair müzakirələrdə sənədləşdirməsi tövsiyə edilir.

**2.2. Lisenziyaların ayrılması.** Tenderin 2014-cü ildə keçirildiyinə baxmayaraq, sövdələşmənin açıqlanmasının 2015-ci ilədək təxirə salınması üçün İlkin Qiymətləndirmədə BP/SOCAR HPBS-in qüvvəyəminmə tarixindən istifadə edilir və 2014-cü il hesabat ilində lisenziyalaın verilmədiyi və ya ötürülmədiyi yekunlaşdırılır. Nəticədə, Qiymətləndirmədə bu tələb qənaətbəxş irəliləyiş ilə yerinə yetirilmiş hesab olunmuşdur. O daha dəqiq şəkildə **TƏTBİQ OLUNA BİLİNMƏDİYİ** kimi təsvir edilə bilər.

Bundan əlavə, standartın 2.3a bəndinə müvafiq olaraq "lisenziyalar" bir sıra hökumət icazələrini və güzəştlərini əhatə edir və tələbin əsasında aparılan müzakirədə təkcə hasilatın pay bölgüsünə dair sazişlərə (HPBS) diqqət yetirilir. Digər lisenziyalar barədə məlumat təqdim olunmamışdır. Xüsusilə, Müstəqil Administratorun "ictimaiyyətin ixtiyarında çox az sayda məlumat olduğuna görə spesifik lisenziyaar ilə əlaqədar lisenziyanın ayrılması prosesləri barədə məlumatın alınması çətin olmuşdur" etirafını nəzərə alaraq, bunun narahatlıq yaratmaq ehtimalı vardır.

Qiymətləndirmədə əlavə bildirilir ki, lisenziyalar barədə danışıqlar fərdi qaydada aparılır və lisenziyaların ayrılması üçün standart texniki və maliyyə meyarları mövcud deyil. Bu proses şəffaflığı təşviq etmir və ya şəffaflığa şərait yaratmır və korrupsiyaya meyllidir. 2.2a bəndinin əsasında tövsiyə edilir ki, MHŞT Hesabatında müfəssəl şəkildə açıqlamanın qarşısını alan hər hansı əhəmiyyətli hüquqi və praktiki maneələr, o cümlədən,belə maneələri aradan qaldırmaq üçün hökumətin planları və buna nail olmaq üçün gözlənilən vaxt müddəti izah olunsun. Həmçinin, 2.2e bəndinə müvafiq olaraq, ÇQ-in lisenziya prosedurlarının səmərəliliyini və effektivliyini müzakirə etməsi və bu barədə iradlarını bildirməsi tövsiyə edilir.

2.3**. Lisenziyaların reyestri** – Biz Qiymətləndirmədə Azərbaycanın qənaətbəxş irəliləyiş əldə etməsi fikri ilə razılaşmırıq və ölkənin **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsini müəyyənləşdirmişik.

Müstəqil Administrator işlək HPBS-lərin ictimaiyyət üçün açıq olan reyestrinin olmadığını təsdiqləmiş və (2.3c tələbinə müvafiq olaraq) 2014-cü il MHŞT Hesabatının məqsədlərinə müvafiq olaraq belə reyestr tərtib etmişdir. Beləliklə, Azərbaycanın ictimaiyyət üçün istifadəyə açıq olan belə reyestri olmamışdır və Standartın 2.3b bəndinə müvafiq olaraq lisenziyalar ilə əlaqədar vaxtında təqdim olunan və müfəssəl məlumat əsasında yenilənmənin aparılmasını təmin etmək üçün hər hansı müzakirələrə və ya qərara dair sübut mövcud deyil. Bundan əlavə, Qiymətləndirmədə bildirilir ki, AIMROC şirkətinin Çovdar qızıl mədəni üçün imzaladığı HPBS 2014-cü ildə fəal olmuş, lakin MHŞT hesabatında və ya ÇQ tərəfindən müzaqkirə olunmamışdır. Bununla əlaqədar Qiymətləndirmədə iki ziddiyyətli görünən mövqelər vardır: (i) AIMROC 2014-cü il MHŞT hesabatında əhatə olunmuş şirkət deyil (bildirilmədiyinə baxmayaraq, onun 2014-cü ildə hökumətə məlumat verilə bilən ödənişlər etmədiyi güman edilir), buna görə onun HPBS-inin reyestrə daxil edilməsi tələb olunmur; və (ii) AIMROC HPBS-in daxil edilməsi tələb olunur, lakin onun daxil edilməməsinə görə qiymətləndirmənin aşağı salınması münasib olmayacaqdır. İstənilən halda reyestrin və ya kadastrın mövcud olmadığı və ya tamamlanmadığı hallarda MHŞT Hesabatında ictimaiyyət üçün açıq olan məlumatda hər hansı boşluqlar açılqnmalı və bu sistemlərin gücləndirilməsi səyləri sənədləşdirilməlidir (2.3c tələbi).

**2.4. Müqavilə üzrə açıqlamalar.** Biz Azərbaycanda irəliləyişin **QƏNAƏTBƏXŞ** olması ilə razılaşırıq.

2014-cü il MHŞT Hesabatında təsdiq edilir ki, açıqlama barədə qanun mövcud deyil, lakin müqavilələr tərəflərin qarşılıqlı razılığı əsasında açıqlana bilər. 2013-cü il MHŞT Hesabatına və yenə də 2014-cü il MHŞT Hesabatına müvafiq olaraq, Azərbaycan könüllü olaraq beş müqavilәni açıqlamış və onları MHŞT-nin veb-səhifəsinə yükləmişdir. 2016-cı ilin Standartında belə açıqlama təşviq edilir, lakin tələb olunmur. Bundan əlavə, tətbiq oluna bilən hallarda, MHŞT hesabatında "ictimaiyyət üçün açıq olan

müqavilələrin/lisenziyaların xülasəsi təqdim olunmalı və bunların çap edildiyi yerə istinad və ya link daxil edilməlidir" (2.4b tələbi). 2014-cü ilin MHŞT Hesabatında açıqlanmış müqavilələrin mövcud olduğu MHŞT veb-səhifəsinə ümumi istinad verilir, bununla belə, bu məsələlərin xülasəsi təqdim olunmur.

**2.5. Benefisiar sahiblik.** Biz Katiblik tərəfindən bu tələbin qiymətləndirilməsi ilə razılaşırıq.

**2.6. Şəffaflıq Təşəbbüsündə (ŞT) dövlətin iştirakı.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

**3.1. Kəşfiyyat.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

Bununla belə, 2014-cü il MHŞT Hesabatında yalnız əmtəəyə görə ehtiyatların statik həcmləri sadalanır. İqtisadi cəhətdən çıxarıla bilən ehtiyatlar, dəyərlər barədə müzakirə və miqyası barədə məlumat ilə (əmtəəyə görə) ehtiyatların artması və ya azalması göstəricisi - MHŞT-nin 3-cü tələbinin qeyd olunan məqsədi – sektorun potensialı barədə daha ətraflı məlumatıtəmin edəcək və təşviq edilməlidir.

**3.2. Hasilat barədə məlumat.** Biz Azərbaycanda irəliləyişin **QƏNAƏTBƏXŞ** olması ilə razılaşır, lakin bildiririk ki, dağ-mədən sektoru tərəfindən açıqlanma tamamilə şirkətin özü tərəfindən təqdim edilmiş hesabatlara əsaslanır. Bu ümumi hal olsa da, daya çox yayılmış qaydalarda hökumət tərəfindən və ya müstəqil şəkildə yoxlamanın aparılması tələb olunur.

**3.3. İxrac barədə məlumat.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

**4.1. Vergilərin və gəlirlərin ətraflı şəkildə açıqlanması**. Biz Qiymətləndirmə ilə razılaşmırıq və bu tələbin yerinə yetirilməsi istiqamətində Azərbaycanın qənatəbəxş deyil, **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsi ilə razılaşırıq.

ÇQ "məbləğin və ya həcmin sıfırdan artıq olduğu" hallarda əməyyatların maddi olduğunu müəyyənləşdirir. MHŞT hesabatında məlumat təqdim edilməmişdir, lakin, bu tərif üçün ÇQ-nin gətirdiyi əsasa istinad edilib. Maddilik üçün norma sıfırdan artıq olmaqdan daha çox "sıfırda müəyyənləşdirilmiş" (səh. 49) kimi götürüldükdə, 2014-cü ilin MHŞT Hesabatında daxili ardıcıllığın olmadığı görünür. Qeyd edilən hesabatda həm də bildirilir ki, 39 şirkət, o cümlədən, iki dağ-mədən şirkəti "2014-cü ildə fəaliyyətdə olmuş şirkətlərin ümumi sayını" təşkil edir. Bununla belə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə görə ən azı iki HPBS ilə əlaqədar olaraq MHŞT-da qeyd olunmamış dağ-mədən şirkətləri və əsasən tikinti materialları ilə məşğul olaraq "istehsalı o qədər mühüm hesab olunmayan" "yerli icra hakimiyyətləri tərəfindən tərəfindən verilmiş dağ-mədən fəaliyyəti hüquqları olan təxminən 500-600 dağ-mədən şirkətləri" mövcuddur. Maddi normanı nəzərə alaraq, sıfırdan artıq olacağına görə hətta qeyri-mühüm ödənişlər nəzərdən keçirilməlidir.

Bu şirkətlər və ya dağ-mədən fəaliyyəti üçün hansı növ icazələrin tələb edilə biləcəyi barədə məlumat mövcud deyil. Bu məlumatın olmaması təkcə bu tələbin əsasında əldə edilmiş irəliləyişə deyil, digər potensial sahələrə, o cümlədən, lisenziyaların ayrılmasına və qeydiyyatına da təsir göstərir. Sonra Qiymətləndirmədə bildirilir ki, "bu şirkətlərdən hər hansı birinin hökumətə ödənişlər etməsinin ehtimal olunmadığına" baxmayaraq "dağ-mədən şirkətlərindən bəzilərinin MHŞT hesabatından çıxarıldığı görünür". Məlumatın olmamasını nəzərə alaraq, belə nəticəyə gəlmək üçün kifayət qədər sübutun olmadığı görünür. Bu tələbin əsasında neft və qaz sektoru üçün qənaətbəxş açıqlama olmadığı halda dağ-mədən sektoru üçün məlumat boşluqlarına görə bütün cəhətlər həyata keçirilmir.

**4.2. Natura formasında gəlirlər.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

**4.3. İnfrastrukturun təmin olunması və barterin təşkili.** Biz Qiymətləndirmədə bu tələbin **TƏTBİQ OLUNA BİLİNMƏDİYİ** fikri ilə razılaşırıq.

**4.4. Nəqletmə gəlirləri.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

**4.5. Dövlət müəssisələri ilə əlaqədar əməliyyatlar**. Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

Qiymətləndirmədə təsdiq edilir ki, 2014-cü il MHŞT Hesabatında yeganə dövlət müəssisəsi olan SOCAR-ın vəzifəsinin müfəssəl şəkildə nəzərdən keçirilmişdir. Qiymətləndirmədə 2014-cü il MHŞT Hesabatında (i) şirkətlər tərəfindən SOCAR-a edilən bütün nağd ödənişlərin və (ii) SOCAR və hökumət arasında bütün əməliyyatların tənzimləndiyi güman edilir, lakin (dəqiqdirsə) təsdiqlənməlidir.

**4.6. Sub-milli ödənişlər**. Qiymətləndirmədə bu tələbin Azərbaycana **TƏTBİQ OLUNA BİLİNMƏDİYİ** müəyyənləşdirilmişdir. Bizim müşahidələrimiz aşağıda göstərilmişdir.

2014-cü il MHŞT Hesabatında yerli səviyyədə vergilərin qoyulduğu izah edildiyi halda Müstəqil Administrator və ÇQ hər ikisi 2014-cü ildə şirkətlər tərəfindən hökumətə submilli ödənişlərin edilmədiyini təsdiqləmişdir. Neft/qaz və dağ-mədən şirkətlərindən yerli səviyyədə maddi dəyər normasından artıq olacağı güman ediləcək yerli vergilərin və ya hər hansı “lisenziya haqqının, kirayə haqqının, giriş haqqının ödənilməsinin və lisenziyalar və/yaxud güzəştlər üçün digər ödənişlərin” (4.1b.vii tələbi) aparılmasının tələb edilməməsini təsəvvür etmək çətindir. Bu yerli səviyyədə hökumətlərin və icmaların bu mədən sənayesi fəaliyyətlərinin birbaşa qəbul edən tərəfi və ya benefisiarları olması mənasına gələcəkdir. Bununla belə, vəziyyətin bu cür olmasının göründüyünə baxmayaraq, xüsusilə, birbaşa gəlirin ayrılması, gəlirin idarə olunması və MHŞT-in ölkə boyu daha müsbət təsir yaratmaq məqsədii ilə əlaqədar olduğundan, bu məsələ əlavə nəzərdən keçirilməli və baxılmalıdır.

**4.7. Məlumatların xırdalanması səviyyəsi**. Biz Azərbaycanın irəliləyişinin **QƏNAƏTBƏXŞ** olması ilə razılaşırıq. 2014-cü il MHŞT Hesabatında şirkət, dövlət qurumu tərəfindən və daxil olan gəlir axınına əsaslanan məlumatlar təqdim edilir. Katiblik ilə məsləhətləşmə zamanı Hesabatda layihə səviyyəsində gəlir məlumatlarının təqdim edildiyi təsdiqlənmişdir.

**4.8. Məlumatların vaxtında təqdim olunması**. Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq. Bu MHŞT-in icrası istiqamətində aydın gücü göstərir.

**4.9. Məlumatların keyfiyyəti və təmin edilməsi**. Biz Qiymətləndirmədə Azərbaycanın qənaətbəxş irəliləyiş əldə etməsi fikri ilə razılaşmırıq və ölkənin qənaətbəxş deyil, **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsini müəyyənləşdirmişik.

Qiymətləndirmədə 4.9b.iii bəndində müəyyənləşdirilmiş Şərtlər Toplusunun (ŞT) tələblərinə dair müvafiq müzakirə təqdim olunur və 2014-cü il MHŞT Hesabatında ÇQ-in (və ya ÇQ və Müstəqil Administratorun) nail olması nəzərdə tutulan Standartın əsasında tələb olunan spesifik razılaşmalardan bəzilərinin təqdim

olunmadığı bildirilir. Standartın 4.9b bəndində tələb olunur ki, beynəlxalq audit standartlarını tətbiq edərək tənzimləmə aparılsın, lakin Müstəqil Administratorun rəyində bildirilir ki, "aparılmış tənzimləmə prosedurları Audit üzrə Beynəlxalq Standartlara və ya Cəlbolunma hallarının nəzərdən keçirilməsinə dair Beynəlxalq Standartlara müvafiq olaraq audit və ya nəzərdən keçirmə halını təşkil etmək üçün layihələndirilməmişdir". Buna görə, bu tələbin yerinə yetiriləsi istiqaətində Azərbaycanın qənaətbəxş deyil, nəzərəçarpan nailiyyət əldə etdiyi müəyyənləşdirilmişdir.

Qiymətləndirmədə təsvir edilən digər təminat tədbirləri ilə birlikdə Müstəqil Administrator tərəfindən şirkətin hesabatlarının risk əsasında yoxlanmasının nəticələrinə əsasən biz Katibliyin hesabat verilən məlumatların keyfiyyətinə etibar etmək arzusu ilə razılaşırıq. Bununla belə, (audit standartları əsasında tələb olunmadığına görə) bütün əməliyyatları yoxlamadığından, Müstəqil Administrator öz rəyini daha dəqiq müəyyən etmiş və əməliyyatlardan hər birinin yoxlanılmış olduğu təqdirdə tələb edilmiş olacaq hər hansı tənzimləməyə görə əlavə dəqiqləşdirmə aparmışdır. ÇQ MHŞT-in gələcək hesabatları ilə əlaqədar bu keyfiyyətləri aradan qaldırmağa təşviq edilməlidir.

**5.1. Mədən sənayesi gəlirlərinin paylanması**. Biz bu tələbin yerinə yetirilməsi istiqamətində Azərbaycanın **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi ilə razılaşırıq.

Bununla belə, MHŞT-in növbəti hesabatlarında, nağd və ya natura formasında olub-olmamasından asılı olmayaraq, mədən sənayesi sektorlarının milli büdcədə qeydə alınmış və milli büdcədə qeydə alınmamış gəlirlərin ayrılması ilə izahatlar ilə birlikdə gəlirlərinin daha dəqiq və nəzarət oluna bilən xülasəsi təqdim edilməlidir.

**5.2. Submilli ödənişlər**. Biz Qiymətləndirmədə bu tələbin 2014-cü il hesabat müddətində Azərbaycana **TƏTBİQ OLUNMAMASI** fikri ilə razılaşırıq.

2014-cü ilin MHŞT Hesabatında və Qiymətləndirmədə bu tələbin tətbiq edilə bilməməsi təsdiq edilir. Bununla belə, gəlirlərin mərkəzləşmiş xüsusiyyəti və mənfəətlərin yerli səviyyəyə tətbiq edilməməsi ilə əlaqədar tez-tez narahatlıqlar bildirilir. Submilli ödənişlərin tətbiq olunmamasını və ya olmamasını müzakirə etmək üçün "Azərbaycan unitar dövlətdir" bəyanatından daha artıq məlumatın təqdim edilməsi faydalı olardı. Xüsusilə MHŞT-in özü barədə ictimai məlumatı artırmaq və ölkə boyu daha böyük müsbət təsir yaratmaq məqsədləri ilə birbaşa əlaqədar olduğundan, bu məsələ əlavə yoxlanılmalı və nəzərdən keçirilməlidir.

**5.3. Gəlirlərin idarə olunması və məsrəflər**. Bu tələbin əsasında açıqlama məcburi deyil.

ÇQ bu tələbin əsasında məlumatı açıqlamağa təşviq edilir, lakin Qiymətləndirmədə qeyd olunan məsələ ilə əlaqədar hər hansı əhəmiyyətli müzakirələrin aparılmamamasının göründüyü bildirilir. Bu tələbin əsasında bu məsələlərə gəlirin davamlılığı və mədən sənayesi sektorundan əldə edilən gəlirlərin kapitaldan kənar sahələrdə də istifadəsi daxildir. Bu məsələlər məlumatın artırılması, ictimai müzakirələrin keçirilməsi və daha böyük təsirə şərait yaradılması üçün əsasdır.

**6.1. Mədən sənayesi şirkətlərinin sosial məsrəfləri**. Biz Qiymətləndirmədə bu tələbin 2014-cü il hesabat müddətində Azərbaycana **TƏTBİQ OLUNA BİLİNMƏDİYİ** fikri ilə razılaşırıq.

Hazırda qanun və ya müqavilə əsasında tələb olunan sosial məsrəflər mövcud deyil. Qiymətləndirmədə bildirilir ki, ÇQ QHT Koalisiyasının da dəstəklədiyi könüllü sosial məsrəflərin nəzərə alınmasının müzakirəsinə davam edir. ÇQ-nin əvvəllər sosial xərcləri "aidiyyatı olmayan pul axını" hesab etməsinə

aydınlıq gətirməsi və bəlkə də mənasının uyğun gəldiyi təqdirdə "tətbiq edilmir" terminindən istifadə etməsi faydalı olardı. Belə könüllü məsrəflərin açıqlanmasının çətin olmayacağı görünür. Bununla belə, Qiymətləndirmənin nəticəsinə əsasən davamlı inkişaf hesabatlarında bəzi şirkətlər özlərinə aid könüllü sosial məsrəflər barədə artıq məlumat verir.

**6.2. Kvazi-maliyyə məsrəfləri.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

ÇQ kvazi-maliyyə məsrəflərinin tərifi ilə razılaşmamışdır. Buna görə də bu məsrəflərin müfəssəl şəkildə açıqlanıb-açıqlanmadığını müəyyənləşdirmək çətindir və açıqlanmış məsrəfləriin hüquqi əsasının izahı məhduddur.

**6.3. Mədən sənayesi sektorunun iqtisadiyyata yardımı.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **QƏNAƏTBƏXŞ** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

**7.1. İctimai müzakirə.** Biz Qiymətləndirmədə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində qənaətbəxş irəliləyiş əldə etməsi fikri ilə razılaşmırıq və qənaətimizə görə lkə **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etmişdir.

2015-ci ilin Qiymətləndirmə Hesabatında bildirilmişdir ki, MHŞT-in Azərbaycanda mədən sənayesi sektoru üzrə ictimai müzakirəyə əhəmiyyətli dərəcədə yardım etməsinə dair məhdud sayda ətraflı məlumat və sübut mövcuddur. Şuranın təshihedici tədbirlərində ÇQ-dən MHŞT Hesabatının ictimai müzakirələ yardım etməsini təmin etmək tələb edilmişdir. Həmin vaxtdan bəri ÇQ 2014-cü il MHŞT-in başa düşülə bilməsini və ictimai istifadəyə açıq olmasını təmin etmək üçün aydın səylər göstərmişdir. Bununla belə, Qiymətləndirmədə ÇQ-nin MHŞT məlumatlarının istifadəsi, açıqlanması və təkrar istifadəsi barədə açıq siyasətə razılıq verib-verməməsi müzakirə edilmir (7.1b).

2015-ci il ərzində indiyə qədər 2016-cı ildə 2014-cü il MHŞT Hesabatı ilə əlaqədar əhəmiyyətli dərəcədə daha çox ictimai məlumat və məlumatlandırıcı fəaliyyətlər həyata keçirilmiş, o cümlədən, regional tədbirlər təşkil edilmiş, universitetlərdə forumlar və yerli icmalarda tədbirlər keçirilmişdir. MHŞT-yə dair məlumatlar müxtəlif formalarda və iki dildə yayılmışdır və ya yayılması planlaşdırılır və sosial mediada məlumat-təşviqat səyləri aydın görünmüşdür. Qiymətləndirmədə qeyd olunan tədbirlər ilə əlaqədar ictimai müzakirələrdə müəyyən artımın olduğu bildirilir.

Qiymətləndirmədə qeyd edilən ictimai məlumatlandrma tədbirlərini planlaşdıran və keçirən tərəflər ilə əlaqədar müəyyən fikir ayrılıqlarının olduğu qeyd edilir. Buna görə vətəndaş cəmiyyət təşkilatlarının cavabdeh olmasına dair ümumi təəssüratın ola biləcəyi görünür və əslində son tədbirlərin təşkilinə görə əsasən onlar cavabdeh olmuşdur. Qiymətləndirmədə müəyyənləşdirilir ki, hökumət və şirkətlər tərəfindən lazımi tədbirlərin görülməməsinə baxmayaraq, Azərbaycan bu tələbin yerinə yetirilməsi istiqamətində qənaətbəxş nailiyyət əldə etmişdir. Bununla belə, bu qeyri-bərabər yanaşma üsulu həm ədalətsiz, həm də əsassızdır və Azərbaycanın iş planında qeyd edilən tərəflərin arasında sağlam və təkmilləşdirilmiş əlaqələrinə şərait yaradılmasından ibarət məqsədi ilə birbaşa ziddiyyət təşkil edir. ÇQ-dən maraqlı tərəflərin bütün qrupları tərəfindən və onlar üçün məlumat-təşviqat tədbirlərinin keçirilməsini təmin etmək tələb olunur və onların vəzifələrini, gözləntilərini və məsuliyyətlərini aydınlaşdırmaq üçün səy göstərilməlidir.

7.2. **Məlumatların çatımlılığı.** Bu tələb qiymətləndirilməmişdir.

7.3. **Ziddiyyətlər və MHŞT hesabatlarındakı tövsiyələr.** Bu tələb təkrar qiymətləndirilməmişdir.

7.4. **Təbii ehtiyatların idarə olunması ilə əlaqədar MHŞT-in icrasının nəticələri və təsiri nəzərdən keçirilməlidir.** Bu Qiymətləndirmə Azərbaycanın bu tələbin yerinə yetirilməsi istiqamətində **NƏZƏRƏÇARPAN** irəliləyiş əldə etməsi fikri ilə razılaşırıq.

Qiymətləndirmədə Azərbaycanın 7.4 tələbinin mühüm cəhətlərini yerinə yetirdiyi bildirilir. Məsələn, 7.4c tələbinə müvafiq olaraq, ÇQ MHŞT hesabatı və Qiymətləndirmə prosesi ilə əlaqədar son tarixlərə riayət etmişdir. Bununla belə 2015-ci il İllik İnkişaf Hesabatlarının təcili olaraq tərtib edildiyini nəzərə alaraq, ÇQ-nin üzvü olmayan tərəflər bir yana, ÇQ-nin bütün üzvlərinin onun işlənməsi və nəzərdən keçirilməsi prosesində iştirak etmədiyi görünür (7.4b). Qiymətləndirmədə əlavə qeyd edildiyi kimi ÇQ son üç il ərzində 7.4a tələbindəki cəhətlərin əksəriyyətinin nəzərdən keçirildiyi İllik İnkişaf Hesabatları (İİH) nəşr etmişdir. Bununla belə, 2015-ci il İİH-də MHŞT-in icrasının və iş planında müəyyənləşdirilmiş məqsədlərin nəticələrinin təsirləri cidd-cəhdlə sənədləşdirilmir və MHŞT-in icrasınıntəbii ehtiyatların idarə olunmasına təsirinin gücləndirilməsi səylərinin nəqli təsviri müvafiq qaydada təmin edilmir.

## 4. TÖVSİYƏLƏR

Biz İlkin Qiymətləndirmədə müzakirə edilən tövsiyələr ilə razılaşır və dəyişdirilmiş və əlavə tövsiyələri kursivlə aşağıda qeyd edirik.

4.1. *Azərbaycan MHŞT-yə cəlb olunmuş QHT-lər ilə əlaqədar vəziyyətin yüngülləşdirilməsi üçün müsbət addımlar atmışdır. Bununla belə, 1.3b-d, 1.3e.i, 1.3e.iv və 1.4a.ii tələblərinin müxtəlif cəhətlərini təmin etmək üçün əlavə irəliləyiş tələb olunur. Xüsusilə*, hökumət MHŞT-də iştirak edən vətəndaş cəmiyyət üçün mühitlə əlaqədar yerdə qalan məsələləri, daha dəqiq desək QHT-lərin qeydiyyatı ilə əlaqədar hüquqi və praktiki maneələri, qeydiyyatdan çıxarışların istifadə imkanlarını, qrantların qeydiyyatını və QHT-lərin fəaliyyət göstərmək qabiliyyətinə təsir göstərən hər hansı digər maneələri nəzərdən keçirməlidir. Hökumət vətəndaş cəmiyyətin təbii ehtiyatların idarə olunması məsələləri ilə əlaqədar fikirlərini bildirməsinə və müzakirə aparmasına şərait yaradıldığına əmin olmalıdır. Vətəndaş cəmiyyət siyasi və fəaliyyət cəhətdən müstəqillik siyasətini razılaşdırmaq və koalisiyanın idarə olunmasına təsir göstərən məsələləri nəzərdən keçirmək üçün tədbirlər görməlidir.

4.2. ÇQ iş planının məqsədləri, mədən sənayesi sektoru və milli priotetlərin arasındakı əlaqələri və seçilmiş məqsədlərin əsasını daha aydın izah etməlidir. ÇQ Çoxtərəfli Qrupun üzvlərindən başqa əsas maraqlı tərəflərin də nəzərə alınması üçün iş planının məqsədləri barədə məsləhətləşmələri genişləndirməyə təşviq edilir. Bundan əlavə, ÇQ iş planı çərçivəsində görülən fəaiyyətlərə səmərəli nəzarət edildiyinə əmin olmalıdır. Bunun üçün ölçülə bilən məqsədlər və qrafik tələb olunur.

4.3. ÇQ lisenziyanın ayrılması ilə əlaqədar vaxtında, yəni, belə hallar baş verdikcə məlumat verilməsini nəzərdən keçirməyə təşviq edilir və MHŞT Hesabatının tətbiq sahəsinə daxil olmayan şirkətlər ilə əlaqədar müqavilələr daxil olmaqla, bütün fəal müqavilələrin daxil edilməsi üçün lisenziya reyestrini yeniləməsi məsləhət görülür. ÇQ vaxt və müfəssəl məlumat nöqteyi-nəzərdən yenilənəcək, ümumi istifadəyə açıq olan lisenziyaların reyestrinin istifadəsini təmin etməlidir. O lisenziyaların verilməsinə konkret yanaşmanın səmərəliliyi və effektivliyi barədə qeydləri nəzərdən keçirməyə və ictimaiyyətin istifadəsinə açıq olan müqavilələrin və lisenziyaların xülasəsini təqdime tməyə təşviq edilir.

4.4. *ÇQ yerli səviyyə də daxil olmaqla, dağ-mədən sektoru, o cümlədən, istismar şirkətlərinin və verilmiş icazələrin sayı barədə daha müfəssəl məlumatların əldə olunmasına çalışmalıdır.* ÇQ dağ-mədən sənayesi ilə əlaqədar iki işlək HPBSdə hökumətin iştirak payı ilə əlaqədar şərtlərə aydınlıq gətirməlidir.

4.5. *ÇQ MHŞT məlumatlarının istifadəsi, təqdim edilməsi və təkrar istifadəsi ilə əlaqədar aydın siyasət barədə razılığa gəlməlidir (7.1b). ÇQ-dən maraqlı tərəflərin bütün qrupları tərəfindən və onlar üçün məlumat-təşviqat tədbirlərinin keçirilməsini təmin etmək tələb olunur və onların vəzifələrini, gözləntilərini və məsuliyyətlərini aydınlaşdırmaq üçün səy göstərilməlidir*.

4.6. *Müqavilələrin Azərbaycan tərəfindən açıqlanması ilə əlaqədar, MHŞT Hesabatında bu müqavilələrin və lisenziyaların xülasəsi təqdim edilməlidir.* MHŞT üzrə gələcək hesabatlara müqavilənin şəffaflığı ilə əlaqədar hər hansı islahatların aparılıb-aparılmadığını təsdiqləyən şərt daxil edilməlidir. Azərbaycanda bütün HPBS-lərin parlament tərəfindən ratifikasiya edildiyini nəzərə alaraq, ÇQ yerdə qalan HPBS-lərin MHŞT Azərbaycan veb-səhifəsində təqdim edilməsi üçün səylərin artırılmasını nəzərdən keçirməlidir.

4.7. *ÇQ maraqlı tərəflərin mədən sənayesi sektorununnecə idarə olunmasını başa düşə bilməsi üçün hüquqi-normativ bazanın, maliyyə rejiminin, tətbiq edilən qiymətlərin və müxtəlif vergi və ödənişlərin hesablanması qaydalarının xülasəsinin MHŞT üzrə gələcək hesabatlarda təqdim edilməsini təmin etməyə təşviq edilir. MHŞT üzrə gələcək hesabatlarda sadalanan islahatlar ilə əlaqədar olaraq, bunların maraqlı tərəflərin dəyişikliyin növünü, onun miqyasını və potensial təsirini başa düşə biləcək şəkildə təsvir edilməsi tövsiyə edilir*.

4.8. ÇQ səhm kapitalı və sahiblik hüququnda dəyişikliklər ilə əlaqədar bütün detalların SOCAR tərəfindən açıqlanmasını təmin etməlidir. ÇQ bunun SOCAR-ın neftin emalı, neft məhsullarının paylanması və marketinqi sektorunda fəaliyyət göstərən törəmə şirkətlərinə də şamil olunmasını nəzərdən keçirməlidir. *Gələcək hesabatlarda ÇQ 1.4 bölməsində müəyyənləşdirilmiş ödəniş və gəlir məbləğlərini 3.6 bölməsində müəyyənləşdirilmiş təxsisat rəqəmləri ilə əlaqələndirən cədvəlin tələb olunmasını və (müəyyən olunma üsulundan asılı olmayaraq) ARDNF tərəfindən milli büdcəyə ödənilmiş və ARDNF-də qalmış məbləğlərə dair müzakirələrin daxil edilməsini nəzərdən keçirməyi arzu edə bilər*.

4.9. *Mədən sənayesinin Azərbaycanda potensialının daha yaxşı başa düşülməsinə şərait yaratmaq üçün ÇQ iqtisadi cəhətdən çıxarıla bilən (əmtəəyə görə) ümumi ehtiyatların dəyəri ilə əlaqədar məlumatları daxil etməyə təşviq edilir. Əlavə olaraq, ÇQ-nin dağ-mədən sənayesinə dair məlumatların etibarlılığı ilə əlaqədar yaranan məsələlərin nəzərdən keçirilməsini müzakirə etməsi tövsiyə olunur. ÇQ ixrac həcmlərinin və göstəricilərinin necə hesablanması barədə məlumat mənbələrinin daxil edilməsini də nəzərdən keçirməlidir*.

4.10. Məhsulun növü, qiyməti, bazar və satış həcmi kimi əlavə məlumatların daxil edilməsi üçün ÇQ satışlardan əldə edilən natura formasında gəlirlər barədə hesabatın genişləndirilməsini nəzərdən keçirməyə təşviq edilir.

4.11. Nəqetmə tədbirlərinin, o cümlədən, nəql olunan məhsulların, nəqliyyat marşrutunun (marşrutlarının), açıqlanan tarif dərəcələrinin və onların hesablanması üçün istifadə edilən

metodologiyaların və nəql olunan istehlak materiallarının həcminin tam təsvirinin verilməsi üçün ÇQ nəqetmə barədə hesabatı genişləndirməyə təşviq edilir.

4.12. ÇQ Müstəqil Administratorun audit edilmiş maliyyə hesabatlarını onlayn nəşr etmiş şirkətlər və hökumət müəssisələri və onlardan istifadə qaydaları barədə xülasə məlumatı təqdim etməsini təmin etməyə təşviq edilir. *Gələcəkdə ÇQ müvafiq audit standartlarına uyğun olaraq tənzimləmənin aparılmasını təmin etməyə təşviq edilir*.

4.13. ÇQ gəlirin idarə olunması və məsrəflər barədə məlumatın daxil edilməsi üçün MHŞT hesabatının müddətinin uzadılmasını nəzərdən keçirmək arzusunda ola bilər. ÇQ gələcək MHŞT hesabatlarında ixtiyari sosial məsrəflər barədə hesabat vermək imkanlarını tədqiq etməyə təşviq edilir.

4.14. ÇQ artan təsirə əsasən zəif cəhətləri və imkanları müəyyənləşdirmək məqsədilə MHŞT-in icrasının təsirinin analizini aparmağa təşviq edilir. Daha geniş maraqlı tərəflərin belə analizə yardım etmə imkanı yaradılması tövsiyə edilir.

***